# TƏHSİLDƏ İNTEQRASİYANIN ZƏRURİLİYİ



**Sevda Balakişiyeva,**
*Bakı şəhəri 202 nömrəli tam orta məktəbin*
*ibtidai sinif müəllimi*
*e-mail: sevda.balakisiyeva00@mail.ru*

**UOT:** 37

**Xülasə.** *Məqalədə ibtidai təhsilin ümumtəhsil sistemində yeri, eləcə də təlimin təşkilində, məzmunun mənimsədilməsində inteqrasiyanın mühüm mərhələ kimi əhəmiyyəti təhlil edilir. İnteqrativlik təhlil edilərək nümunələrlə nəzərə çatdırılır.*

***Açar sözlər:*** *milli kurikulum, ibtidai təhsil, inteqrasiya, təlim nəticələri.*
***Key words:*** *national curriculum, primary education, integration, learning outcomes.*
***Ключевые слова:*** *национальный куррикулум, начальное образование, интеграция, результаты обучения.*

Ümumi təhsilin birinci mərhələsi olan ibtidai təhsil insan kapitalının formalaşması baxımından sosial-iqtisadi hazırlıq üçün bir təməldir. Belə ki, ibtidai təhsil alan uşaqlar ətraf mühit haqqındakı ilkin bilikləri, məhz bu təhsil pilləsində əldə edir, ünsiyyət və tətbiqi məsələləri həll etmək bacarıqlarına inteqrasiya vasitəsilə yiyələnirlər. Bu mərhələdə uşağın şəxsiyyəti formalaşmağa və inkişaf etməyə başlayır. Bu da ibtidai təhsilin cəmiyyət və ölkə üçün nə qədər əhəmiyyətli olduğuna dair bir sübutdur. Odur ki, bütün təhsil pillələrini özündə əks etdirən və ölkəmizin təhsil sahəsindəki uğurlarından hesab edilən müvafiq konseptual sənəddə – Milli kurikulumda qeyd olunur: ibtidai təhsilin məqsədi uşaqlarda oxu, yazı və hesablama vərdişləri yaratmaq və möhkəmləndirmək; uşaqlara insan, cəmiyyət, təbiət və onlar arasındakı qanunauyğunluqlar haqqında ilkin həyati biliklərin verilməsini təmin etmək; uşaqlarda məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq; istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etmək; uşaqlara həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər, fiziki mədəniyyət və özünəxidmət bacarıqları aşılamaqdır.

Ölkəmizdə qəbul edilmiş ümumi təhsil konsepsiyasına görə ibtidai təhsili başa vuran şagird aşağıdakıları bacarmalıdır:

*– zəruri riyazi bilikləri həyatda tətbiq etməyi və sadə alqoritmləri yerinə yetirməyi, kompüter texnikasından istifadə etməyi;*

*– müşahidə etdiyi obyekt və hadisələri təsvir etməyi, onları səciyyəvi əlamətlərinə görə fərqləndirməyi;*

*– müstəqil və məntiqi düşünməyi, münasibət bildirməyi;*

*– ünsiyyət qurmağı, əməkdaşlıq etməyi, fikirlərini aydın ifadə etməyi;*

*– mədəni davranış, şəxsi gigiyena və müvafiq təhlükəsizlik qaydalarına əməl etməyi;*

*– tapşırılan işi, habelə yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi, sadə əmək*

*vərdişlərini tətbiq etməyi;*

*– öz vəzifələrini yerinə yetirməyi, özünün və digərlərinin hüquqlarına hörmət etməyi;*

*– Azərbaycan xalqının dili, əxlaqi-mənəvi dəyərləri, milli adət-ənənələri, tarixi, mədəniyyəti, incəsənəti haqqında qazandığı ilkin bilikləri sadə formada təqdim etməyi;*

*– yaşına uyğun bədii, elmi-kütləvi və məlumat xarakterli mətnləri oxumağı, mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi, lüğətlərdən, məlumat xarakterli kitablardan istifadə etməyi;*

*– insanlara, təbiətə, əməyə, şəxsi və dövlət əmlakına ədalətli, qayğıkeş və tolerant münasibət bəsləməyi, gerçəkliyi estetik qavramağı və s.*

Milli kurikulumda ibtidai təhsil pilləsində tədris olunan fənlər: Ana dili, Azərbaycan dili, Xarici dil, Riyaziyyat, İnformatika, Həyat bilgisi, Texnologiya, Fiziki tərbiyə, Musiqi, Təsviri incəsənət olmaqla əsaslandırılmış, ümumi təlim nəticələri əks olunmuşdur.

"Kurikulum" latın sözü olub, mənası "kurs", "yol" deməkdir. Xarici pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, kurikuluma aid biliklərin təşəkkül tapması və inkişaf etməsi üçün 30 ilə yaxın bir vaxt sərf olunmuşdur. 1918-ci ildə ilk kurikulumlar yaradılmış, ötən əsrin 60-70-ci illərində dünyada, xüsusən ABŞ-da kurikulum ideyaları genişləndirilmiş, bir nəzəriyyə kimi formalaşdırılmışdır. Beləliklə, kurikulum hərəkatı kimi genişlənən bu təhsil dalğası dünyanın inkişaf etmiş ölkələrində də yayılmış, mütərəqqi təhsil təcrübəsi kimi özünün təsdiqini daha geniş miqyasda tapmışdır.

Azərbaycanda "kurikulum" termini ötən əsrin 90-cı illərinin sonundan etibarən istifadə olunmağa başlanmışdır. İlk vaxtlar "təhsil planı" kimi tərcümə olunaraq istifadə edilsə də, sonralar araşdırmalarda kurikulum kimi işlənmişdir. Hazırda normativ-hüquqi sənədlərin dilində də eynilə həmin anlayış saxlanılmaqdadır. Sənədlərdə kurikulum islahatını zəruri edən səbəblər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

*– cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması;*

*– planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;*

*– dünya təhsil sisteminə inteqrasiya;*

*– informasiya əsrinin tələbləri, təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması;*

*– mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi.*

**Kurikulumun prinsipləri** isə təhsildə milli və ümumbəşəri dəyərlərin nəzərə alınması; ümumi inkişaf, meyil və maraqları nəzərə almaqla, bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması; nəticəyönümlülük; inteqrativlik; tələbyönümlülük və şagirdyönümlülükdür.

Təhsildə vacib bir mərhələ hesab edilən *"fəndaxili və fənlərarası əlaqə"* mənasını özündə ehtiva edən ***inteqrasiya***, müasir müəllimdən Azərbaycanda qəbul edilmiş ümumi təhsil konsepsiyasına görə ibtidai təhsili başa vuran şagirdin qeyd olunan tələblər üzrə əməli fəaliyyətləri bacarmaları üçün fənlərin tədrisində inteqrasiyanın standartlarla aparılmasına sistemli olaraq nail olmağı və digər tələblərlə yanaşı, inteqrativliyi də tədrisdə diqqətdə saxlamağı tələb edir. Dünya təhsil sisteminə "inteqrasiya" ifadəsinin daxil olması zərurilikdən irəli gəlir. Mütəxəssislər ümumtəhsil sistemində inteqrasiyanın aparılmasında elmi və metodiki araşdırmaların təşkilini istisna etmədən praktik fəaliyyətin nəzəri-pedaqoji əsaslarının öyrənilməsini vacib sayırlar.

İnteqrasiya bir termin kimi latın dilindən götürülüb, "integer" – *"bütöv"*, *"bütövləşmə"* deməkdir. "İnteger" sözündən yaranan "integratio" sözü də latın dilində *"bərpa"*, *"tamamlanan"* mənasını verir. "İnteqrasiya" termini XX əsrin sonundan daha çox istifadə olunmağa başlasa da, onun mahiyyəti və məzmunu həyat yarandığı gündən mövcud olmuşdur.

İbtidai təhsilin Ana dili təlimində inteqrasiyası müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət göstərir və bu proses eyni bir bacarığın Texnologiya və Təsviri incəsənət fənləri vasitəsilə daha da təkmilləşdirilməsini təmin edir. İlk növbədə, Ana dili fənni üzrə yeni anlayışlar Texnologiya və Təsviri incəsənət fənlərinin inteqrasiyası prosesində intensivləşir və qazanılan biliklər möhkəmlənir. Burada digər bir keyfiyyətin, həm də təlim vaxtına qənaət edilməsidir. Mütəxəssislərin qənaətinə görə, fənlərin Ana dili ilə inteqrasiyasının məzmun və fəaliyyət baxımından uyğun gələn standartları daha çoxdur. Müəyyən olunmuş həmin standartların

kodları Ana dili üzrə müvafiq standartların qarşısında qeyd edilir. Bu cəhətə əsaslanaraq Texnologiya və Təsviri incəsənət fənlərinin Ana dili ilə inteqrasiyasının mənzərəsini aydın görmək olar. Nümunə üçün qeyd edək ki, 1-ci sinifdə **Texnologiya** fənninin illik planlaşdırılmasında təsbit olunan mövzuların Ana dili və Təsviri incəsənət fənləri ilə inteqrasiyasının kodlara görə təhlilindən aşağıdakı əlaqələr müəyyənləşir:

**Mövzu:** Materiallar, emal texnologiyaları və emal vasitələri.

Ana dili: 1.2.1.; 1.2.3.

1.2.1. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

1.2.3. Nitqində sadə bədii ifadələrdən istifadə edir.

Araşdırmadan aydın olur ki, 12 mövzu üzrə Ana dili ilə inteqrasiya eyni kodlarla aparılır.

**Təsviri incəsənət** fənni ilə inteqrasiyanın kodlarını müəyyənləşdirərkən mövzu üzrə aşağıdakı nəticə diqqəti cəlb edir:

**Mövzu:** Plastilindən məmulatların hazırlanması. Ayı balası.

**Alt standart:** Təsviri-incəsənət: 2.2.4.

2.2.4. Əsas rəngləri tanıyır və onları sadalayır.

Dərslikdə olan 11 mövzu Təsviri incəsənət fənnində də yalnız 2.2.4 kodu ilə inteqrasiya olunur. Deməli, 1-ci sinifdə oxuyan şagirdlər Texnologiya fənnindən tədris mövzuları ilə məntiqi əlaqələr qurmaq üçün Ana dili üzrə 1.2.1. və 1.2.3. standartlarından faydalanmalıdırlar. Yəni müşahidə etdiyi cisim, hadisələr və şəkillər üzrə danışmaq, nitqində sadə bədii ifadələrdən istifadə etmək tələbi qoyulur. Bu prosesdə Təsviri incəsənət fənninin əlaqəsi ondan ibarətdir ki, şagirdlər əsas rəngləri tanısınlar və onları sadalasınlar.

Müəllim ilk növbədə, inteqrasiya olunan kodların tələblərini şərh etməyi bacarmalıdır. Məsələn, müəllim əsas rənglər haqqında nələri bilməlidir: əsas rənglər (sarı, qırmızı, mavi); qarışıq rənglər (yaşıl, bənövşəyi, narıncı); soyuq rənglər (yaşıl, mavi, bənövşəyi); isti rənglər (sarı, qırmızı, narıncı); zidd rənglər (sarı-bənövşəyi, yaşıl-qırmızı, mavi-narıncı).

Ana dilinin ibtidai təhsil pilləsində tədris olunan fənlərlə inteqrasiyasını tədqiqatçı alim Ş. Ağayevin müəllifi olduğu metodiki kitabında verdiyi aşağıdakı sxemdən aydın dərk etmək olar:




Sxemdən də göründüyü kimi, ibtidai təhsil pilləsində tədris olunan fənlərin əsaslandırılması, fənlər üzrə ümumi təlim nəticələri Ana dili fənni ilə qırılmaz şəkildə bağlıdır. Fənnin əsaslandırılması əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılmasının təmin olunması, məhz fənlərlə əlaqəli inteqrasiya şəraitində mümkündür.

Ana dili üzrə şagird aşağıdakı ümumi təlim nəticələrini öyrəndiyi digər fənlərin təlim nəticələri ilə əlaqəsini qurur:

*– sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır;*

*– dialoqa girir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;*

*– oxuduğu və dinlədiyi mətnlərə münasibət bildirir;*

*– ayrı-ayrı mətnlərdən əsas faktları seçib qruplaşdırır, kiçikhəcmli mətnlər hazırlayır.*

Şagirdlərin lüğət ehtiyatının artırılmasında Texnologiya və Təsviri incəsənət fənlərinin də geniş imkanları vardır. Belə ki, Texnologiya fənnindən məmulat, ölçmə, nişanlama, oduncaq, detal, büdcə, ülgüc, pəstah, aplikasiya, ornamentlər, dizayn, lobzik və s., Təsviri incəsənət fənnindən isə dekorativ, təsvir, janr, qrafika, boyakarlıq, heykəltaraşlıq, memarlıq, oyma və s. terminlərin geniş şərhini bacaran hər bir şagirdin lüğət ehtiyatı zənginləşir.

**Nəticə.** Sonda fikirlərimizi ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, inteqrasiya fəndaxili

və fənlərarası əlaqələrin, müxtəlif təhsil proqramları arasında qarşılıqlı əlaqənin yaradılması yolu ilə təhsilin məzmununun bütövlüyünə nail olunması prosesi və nəticəsi kimi müxtəlif sahələr üzrə biliklərin şagird təfəkküründə ətraf aləm haqqında tam, sistemli dünyagörüşünün formalaşmasına şərait yaradır, eyni zamanda şagirdlərin texnoloji bilik və bacarıqlarının formalaşdırılması təlimində fənlərin inteqrasiya imkanlarını artırır.

## ƏDƏBİYYAT


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008.
2. Sadıqov F. Ümumi pedaqogika. Bakı, Maarif, 2018, 864 səh.
3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı, Nurlan, 2007, 568 səh.
4. Ağayev Ş., Rzayeva S. Məktəbəqədər kurikulum: nəzəriyyə və təcrübə. MM-S, Bakı, 2017, 304 səh.
5. Ağayev Ş. Fənlərin inteqrasiyası. MM-S, Bakı, 2013.
6. Ağayev Ş., Hacızadə R. və b. İbtidai siniflərdə şagirdlərin texnologiyadan idrak bacarıqları. Bakı, MM-S, 2019, 220 səh.
7. Ağayev Ş., Hacızadə R. Dərs: ənənə və müasirlik. Bakı, MM-S, 2020, 192 səh.


**S.Balakishiyeva**

**The necessity of integration in education**

**Abstract**

The article analyzes the place of primary education in the general education system, as well as the importance of integration as an important stage in the organization of training and mastering the content. Integration is analyzed and presented with examples.

**С.Балакишиева**

**Необходимость интеграции в образовании**

**Аннотация**

В статье анализируется место начального образования в системе общего образования, а также значение интеграции как важного этапа организации обучения и усвоения содержания. Интегративность проанализирована и представлена на примерах.